**Kazus**

A adlı şəxs "İyeqova şahidləri" təriqətinə mənsub idi və mühasib peşəsi üzrə yerli şirkətlərdən birində çalışırdı. Həmin təriqət passifizmi əsas prinsip kimi qəbul etdiyi üçün, A hərbi xidmət yaşı çatmasına baxmayaraq, hərbi xidmətdən yayındı və buna görə cinayət məsuliyyətinə cəlb edildi və ona mühasib fəaliyyəti ilə məşğul olmaq qadağan edildi. Azadlıqdan məhrum etmə cəzasını çəkdikdən sonra, əvvəlki işinə bərpa oluna bilmədi. Belə ki, yerli qanunvericilik cinayət törətmiş şəxslərin mühasib kimi fəaliyyət göstərməsini qadağan edirdi. A cinayət qanunvericiliyindəki bu normanın ona qarşı ayrıseçkilik olduğunu iddia etdi və məhkəməyə müraciət etdi. Dövlət isə hesab etdi ki, qanunvericiliyin bu norması bütün mühasiblərə aiddir və ona qarşı heç bir ayrıseçkiliyə yol verilməyib.

*Hazırladı: Sadiq Bağırov*